**Hər bir xalqın gələcəyi onun gənclərinin düşüncəsi, dünyagörüşü və mənəvi dəyərləri ilə müəyyən olunur. Gənclər yalnız cəmiyyətin bir hissəsi deyil, həm də sabahın qurucuları, dövlətin inkişafının əsas dayağıdır. Buna görə də gənc nəslin milli mənlik şüurunun formalaşdırılması, vətənpərvərlik hisslərinin gücləndirilməsi və sağlam ideoloji tərbiyə alması hər bir dövlət üçün strateji əhəmiyyət daşıyır.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

# Gənclər Günü gənclərə göstərilən diqqət və etimadın rəmzidir

## FƏAL, SAVADLI VƏ ƏXLAQLI GƏNCLƏR ÖLKƏNİN SABİTLİYİNİN VƏ TƏRƏQQİSİNİN ƏSAS TƏMİNATÇISIDIR



Azərbaycan xalqı tarix boyu milli kimliyinə, adət-ənənələrinə, ana dilinə və torpağına bağlılığı ilə seçilib. Bu dəyərlərin yeni nəsillərə ötürülməsi isə müasir dövrdə daha böyük məsuliyyət tələb edir.

Milli mənlik şüuru insanın öz xalqına məxsusluğunu dərk etməsi, tarixinə, mədəniyyətinə və milli dəyərlərinə sahib çıxması deməkdir. Bu şüur insanın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Öz kimliyini tanımayan gənc gələcəkdə cəmiyyət üçün faydalı və məsuliyyətli vətəndaş ola bilməz. Buna görə də milli şüurun formalaşdırılması erkən yaşlardan başlanmalıdır. Uşaqlar ailədə eşitdikləri nağıllar, atalar sözləri, milli musiqilər və adətlər vasitəsilə xalqın ruhunu hiss edir, öz köklərinə bağlanırlar.

Ailə gəncin ilk tərbiyə ocağıdır. Valideynlərin övladlarına verdiyi tərbiyə, göstərdikləri münasibət, aşıladıqları dəyərlər onların gələcək həyatına birbaşa təsir edir. Vətən sevgisi, böyüyə hörmət, kiçiyə qayğı, dürüstlük, zəhmətkeşlik kimi keyfiyyətlər, ilk növbədə, ailədə formalaşır. Əgər valideynlər uşaqlara tariximizi, qəhrəmanlarımızı, milli bayramlarımızı öyrədirsə, bu, onların şüurunda silinməz iz buraxır. Belə gənclər Vətənə bağlı, milli dəyərlərə hörmət edən insanlar kimi yetişirlər.

Məktəb və ali təhsil müəssisələri də gənclərin milli-mənəvi tərbiyəsində mühüm rol oynayır. Tarix dərslərində şagirdlər xalqımızın keçdiyi mübarizələrlə dolu yolu öyrənir, ədəbiyyat dərslərində klassik və müasir yazıçıların əsərləri ilə tanış olur, qəhrəmanlıq və vətənpərvərlik ruhunu hiss edirlər. Coğrafiya dərsləri isə doğma torpağın gözəlliklərini, sərvətlərini və strateji əhəmiyyətini tanıdır. Bütün bunlar gənclərdə Vətənə bağlılıq hissini daha da gücləndirir.

Gənclərin öz xalqına məhəbbət hissi ilə böyüməsi onların xarakterinin möhkəmlənməsinə kömək edir. Vətən anlayışı təkcə coğrafi məkan deyil, həm də doğma dil, ailə mühiti, uşaqlıq xatirələri və mədəni irs deməkdir. İnsan bu dəyərlərlə bağlı olduqda özünü daha güvənli hiss edir və həyatdakı məqsədlərinə inamla addımlayır. Bu bağlılıq gənclərə həm mənəvi dayaq, həm də gələcək fəaliyyətləri üçün stimul verir.

Milli ruhun formalaşmasında məktəbdənkənar fəaliyyətlərin də böyük rolu vardır. Müxtəlif dərnəklər, intellektual yarışlar, yaradıcılıq müsabiqələri və sosial layihələr şagirdlərin həm bacarıqlarını üzə çıxarır, həm də onları fəal vətəndaş kimi yetişdirir. Belə tədbirlər gənclərə komanda ilə işləməyi, məsuliyyət daşımağı və birgə qərar qəbul etməyi öyrədir. Bu keyfiyyətlər isə gələcəkdə cəmiyyətin inkişafı üçün vacibdir.

Tarixi abidələrin qorunması və milli irsə hörmət məsələsi də gənclərin diqqət mərkəzində olmalıdır. Qədim qalalar, məscidlər, karvansaralar və digər mədəniyyət nümunələri xalqımızın keçmişindən xəbər verir. Bu abidələrə sahib çıxmaq sadəcə dövlətin deyil, hər bir vətəndaşın vəzifəsidir. Gənclər bu dəyərləri öyrəndikcə keçmişlə bu gün arasında mənəvi körpü yaranır.

Azərbaycanın tarixi həm də qəhrəmanlıq salnaməsi ilə zəngindir. Xalqımız müxtəlif dövrlərdə müstəqilliyi və torpaqları uğrunda mübarizə aparmış, ağır sınaqlardan keçmişdir. Xüsusilə Qarabağ uğrunda aparılan mübarizə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayır. Şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin şücaəti, ordumuzun igidliyi hər bir gənc üçün örnəkdir. Bu hadisələr gənclərə göstərir ki, Vətəni qorumaq müqəddəs borcdur və hər kəs bu məsuliyyəti dərk etməlidir.

Vətənpərvərlik yalnız hərbi sahə ilə məhdudlaşmır. Vətənə sevgi gündəlik həyatımızda gördüyümüz işlərdə də özünü göstərir. Dərslərini məsuliyyətlə oxuyan tələbə, işini vicdanla yerinə yetirən müəllim, insanlara şəfa verən həkim, ölkə iqtisadiyyatına töhfə verən sahibkar da vətənpərvərdir. Cəmiyyətə fayda vermək, dövlət qanunlarına hörmət etmək, ictimai əmlaka sahib çıxmaq, ətraf mühiti qorumaq vətəndaşlıq borcudur. Gənclər bu məsuliyyəti dərk etdikdə ölkənin inkişafı daha sürətli olur.

İnsan hüquqlarına hörmət, ədalətlilik və sosial həmrəylik də vətənpərvərliyin tərkib hissəsidir. Cəmiyyətin problemlərinə laqeyd qalmayan, ehtiyacı olanlara yardım əlini uzadan gənclər daha yüksək mənəviyyata malik olurlar. Belə münasibət insanları birbirinə yaxınlaşdırır və birlik hissini gücləndirir. Birlik olan yerdə isə inkişaf daha sürətli olur.

Ətraf mühitin qorunması da vətəndaşlıq məsuliyyətinin göstəricisidir. Təbiəti sevmək, yaşıllıqları qorumaq, təmizliyə riayət etmək gələcək nəsillərə sağlam mühit ötürmək deməkdir. Ekoloji aksiyalarda iştirak edən gənclər həm faydalı iş görür, həm də cəmiyyətə nümunə olurlar. Bu davranış onların vətənə bağlılığını əməldə göstərir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı gənclərin həyat tərzinə güclü təsir göstərir. İnternet və sosial şəbəkələr vasitəsilə dünya ilə əlaqə qurmaq, yeni biliklər əldə etmək mümkündür. Lakin bununla yanaşı, yad ideologiyaların təsiri altına düşmək, milli dəyərlərdən uzaqlaşmaq təhlükəsi də mövcuddur. Buna görə də gənclər tənqidi düşünməyə malik olmalı, hansı məlumatın faydalı, hansının zərərli olduğunu ayırd etməyi bacarmalıdırlar. Milli kimliyi qorumaq üçün mənəvi dayaq vacibdir.

Mədəniyyət və incəsənət də milli mənlik şüurunun formalaşmasında mühüm vasitədir. Azərbaycan musiqisi, muğamı, aşıq sənəti, xalçaçılıq, folklor nümunələri xalqımızın zəngin mədəni irsini əks etdirir. Gənclərin bu irslə tanış olması onların milli qürur hissini artırır. Teatrlara, muzeylərə, sərgilərə, konsertlərə getmək, milli ədəbiyyat oxumaq, xalq oyunlarını öyrənmək gənclərin mənəvi dünyasını zənginləşdirir və onları köklərinə daha da yaxınlaşdırır.

Gənclər həm də mədəniyyətimizin təbliğatçısı kimi çıxış etməlidirlər. Xarici ölkələrdə təhsil alan və ya müxtəlif beynəlxalq layihələrdə iştirak edən gənclər Azərbaycanı layiqincə təmsil etdikdə ölkəmizin nüfuzu artır. Onların davranışı, savadı və dünyagörüşü xalqımız haqqında müsbət fikir formalaşdırır. Bu da milli qürur hissini daha da gücləndirir.

Könüllülük fəaliyyəti və ictimai layihələr də gənclərin sosial məsuliyyətini artırır. Müxtəlif xeyriyyə aksiyalarında, ekoloji kampaniyalarda, sosial tədbirlərdə iştirak edən gənclər cəmiyyətə faydalı olmağın sevincini yaşayırlar. Bu fəaliyyətlər həm də onlarda həmrəylik, birlik və yardımlaşma kimi keyfiyyətləri inkişaf etdirir. Belə gənclər gələcəkdə daha fəal vətəndaş kimi formalaşır, dövlətin inkişafında yaxından iştirak edirlər.

Dövlət tərəfindən həyata keçirilən gənclər siyasəti bu prosesə əlavə dəstək verir. Təhsil proqramları, təqaüdlər, beynəlxalq mübadilə layihələri, gənclər mərkəzləri və forumlar gənclərin bilik və bacarıqlarının artmasına şərait yaradır. Xarici ölkələrdə təhsil alan və təcrübə qazanan gənclər Vətənə qayıdaraq öz biliklərini ölkənin inkişafına sərf edirlər. Bu da milli inkişafın davamlılığını təmin edir və müasir, savadlı nəslin formalaşmasına kömək edir.

Ana dilinin qorunması milli kimliyin əsas şərtlərindən biridir. Dil xalqın tarixini, mədəniyyətini və düşüncə tərzini özündə əks etdirir. Gənclər ana dilində düzgün danışmalı, ədəbi dil normalarına riayət etməli, dilimizi yad sözlərin təsirindən qorumağa çalışmalıdırlar. Kitab oxumaq, yazmaq, ədəbiyyata maraqlanmaq dilin zənginliyini artırır və milli şüurun möhkəmlənməsinə xidmət edir.

Sağlam həyat tərzi, idmana maraq və düzgün qidalanma da gənclərin fiziki və mənəvi gücünü artırır. Güclü orqanizm və möhkəm iradə insanı qarşıya çıxan çətinliklərdən qorxutmur. Enerjili və sağlam gənclik isə cəmiyyətin əsas dayağı sayılır. Bu səbəbdən idmanla məşğul olmaq təkcə şəxsi sağlamlıq deyil, həm də ictimai əhəmiyyət daşıyır.

İdman sahəsində qazanılan nailiyyətlər də vətənpərvərlik hisslərini gücləndirir. Beynəlxalq yarışlarda Azərbaycan bayrağının ucaldılması, himnimizin səsləndirilməsi hər bir gəncdə qürur hissi yaradır. İdmançılarımızın uğurları gənclərə nümunə olur, onları sağlam həyat tərzinə və əzmkarlığa təşviq edir. Sağlam və güclü gənclik isə güclü dövlət deməkdir.

Bütün bu amillər göstərir ki, milli mənlik şüurunun inkişafı və vətənpərvərlik hisslərinin tərbiyəsi sistemli və davamlı prosesdir. Bu prosesdə ailə, məktəb, dövlət, ictimai təşkilatlar və bütövlükdə cəmiyyət birgə fəaliyyət göstərməlidir. Gənclər isə öz növbəsində bu qayğıya layiq olduqlarını sübut etməli, daim öz üzərlərində çalışmalı, bilik və bacarıqlarını artırmalı, Vətənə sadiq vətəndaş olmağa can atmalıdırlar.

2 Fevral - Gənclər Günü gənclərə göstərilən diqqət və etimadın rəmzidir. Gənclər Günü gənclərin cəmiyyət həyatındakı rolunu bir daha xatırladan, onların inkişafına verilən önəmi göstərən əlamətdar bir gündür. Bu gün gənclərin nailiyyətləri qeyd olunur, onların uğurları qiymətləndirilir, fikirləri dinlənilir, yeni təşəbbüsləri və gələcək planları dəstəklənir. Hər bir gənc bu diqqəti məsuliyyət kimi qəbul etməli, daim inkişaf etməyə, xalqına və dövlətinə layiqli vətəndaş olmağa çalışmalıdır. Bu tarix hər bir gəncə xatırladır ki, ölkənin sabahı onların əlindədir və Azərbaycanın inkişafı onların savadına, zəhmətinə, vətən sevgisinə bağlıdır. Bu məsuliyyəti dərk edən, milli dəyərlərə sadiq qalan, vətənpərvər ruhda yetişən gənclər isə daim dövlətimizin ən böyük sərvəti hesab olunur. Milli şüura malik, fəal, savadlı və əxlaqlı gənclər ölkənin sabitliyinin və tərəqqisinin əsas təminatçısı kimi cəmiyyətin aparıcı qüvvəsini təşkil edir.

*Cahan QARAYEVA*
*Azərbaycan Dillər Universitetinin II kurs tələbəsi*